# BİBLİOQRAFİK TƏDQİQATLARIN YENİ İSTİQAMƏTLƏRİ

**QURBANOV A.İ.**
***BDU, Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı, dosent***
azadbey@mail.ru

*Məqalədə informasiya cəmiyyətində sənəd kommunikasiya sistemində biblioqrafik tədqiqatların rolu qeyd edilmiş, bu sahədə aparılan tədqiqatların yeni istiqamətləri müəyyən edilmişdir. İnformasiyanın yeni təzahür formalarının meydana gəlməsi, emal, mühafizə və mübadilə metodlarının və vasitələrinin yaranması şəraitində biblioqrafik tədqiqatların vəzifələri və onlara qoyulan tələblər şərh olunmuşdur.*

***Açar sözlər:*** *biblioqrafik resurslar, kitabxana cəmiyyəti, sənəd-kommunikasiya sistemi, biblioqrafik tədqiqatlar.*

İnformasiya insan fəaliyyətinin əz zəruri komponenti və cəmiyyətin mövcudluq şərtidir. Bəşəriyyətin ən müxtəlif maddi, mənəvi, idraki tələbatları informasiya əsasında ödənilir. İnformasiyanın ilkin mənbəyi təbiətdir və verilən şəkildə mövcuddur. İnsanlar tarixən tədqiqat nəticəsində verilənlərin emal metodlarını yaratmaqla onu informasiyaya çevirir və qərar qəbul edilməsində istifadə etməklə yanaşı, onun qorunması və mübadiləsi üsullarını hazırlayırlar. Məhz informasiyanın emal, mühafizə və mübadilə üsullarının təkamülü sivilizasiyanın bugünkü inkişafını təmin etmişdir. Qeyd edək ki, şüurun və svilizasiyanın təşəkkülünün başlanğıc nöqtəsi kimi xarakterizə olunan nitq öz növbəsində informasiyanın ilk mübadilə və mühafizə üsuludur. Daha sonralar yazının, onun əsasında informasiyanın geniş istifadəsini, nəsildən-nəslə keçməsi üçün uzunömürlülüyünü təmin edən yeni, texniki cəhətdən daha yetkin və təkmilləşdirilmiş işlənmə, saxlanma, yayılma üsulları və vasitələri kəşf edilir. Bunun nəticəsində cəmiyyətdə elm və mədəniyyətin təşəkkül tapmasına səbəb olan sənəd kommunikasiyaları (sənəd – informasiya tələbatçısı) sistemi formalaşır.

Elm və mədəniyyətin inkişafı sosial-iqtisadi dəyişikliklərə və bundan doğan informasiya bolluğu sənəd kommunikasiyaları sistemində lazımi informasiyanı özündə əks etdirən sənədlərin tapılması problemini aktual etdi. Bu problem biblioqrafik tədqiqatlar nəticəsində müxtəlif dövrlərdə cəmiyyətin inkişaf səviyyəsinə uyğun öz həllini tapmışdır. Bu səbəbdən biblioqrafik tədqiqatlar informasiya fəaliyyətinin bir növü olub, cəmiyyətin informasiya tələbatının ödənilməsinə xidmət edir və onun nəticəsində yaranan kitabxana-informasiya fəaliyyətinin təməl komponenti hesab edilən biblioqrafik xidmət və biblioqrafik formasiya sənəd və tələbatçı arasında əlaqənin yaranmasına şərait yaradır.

XX əsrin ikinci yarısında kompüterlərin istehsalı ilə meydana gələn və əsrin sonunda bəşər sivilizasiyasının yeni sosial-iqtisadi formasının təşəkkül tapmasına səbəb olan informasiya-telekommunikasiya texnologiyası cəmiyyətin bütün sahələrində olduğu kimi, sənəd kommunikasiya sistemində də köklü dəyişikliyə səbəb oldu. İlk növbədə rəqəmli formatda yeni sənəd tipləri, sənədlərin emalının, əlyetərliyinin və mübadiləsinin təmin edilməsinin üsul və vasitələri və s. meydana gəldi. Bu dəyişikliklər yeni biblioqrafik tədqiqatlarının və həm də onun nəticəsində yaranan biblioqrafik məhsulların yaranmasına və yeni informasiya mədəniyyətinin formalaşmasına səbəb oldu.

XXI əsri informasiyalaşmış cəmiyyət quruculuğu əsri adlandırırlar. İnformasiyalaşmış cəmiyyətin təməl prinsipi coğrafi, siyasi, dini, milli, irqi və cinsi məhdudiyyət olmadan hamı üçün informasiyanın əlyetərliyinin təmin olunması, informasiyanın əmtəyə çevrilməsi, informasiya bazarınının və vahid informasiya mühitinin formalaşmasıdır. Bu təməl prinsipin həyata keçirilməsi məqsədilə son 15 ildə əsasən Qərb ölkələrində aşağıdakı istiqamətlərdə intensiv biblioqrafik tədqiqatlar aparılır:

- *axtarış və kommunikativ istiqaməti;*

Bu istiqamətdə tədqiqatlar tarixi inkişaf yolu keçmişdir və sənədlərin forma və məzmuna görə nizamlanmasına xidmət edir. İnformasiya texnologiyalarının inkişafı ilə əlaqədar olaraq axtarış və kommunikativ istiqamətində tədqiqatlar yeni multidisiplinar xarakter daşımağa başlayır. Rəqəmli tip informasiyanın növ müxtəlifliyi və onların əlyetərliyinin operativ təmin olunması problemi biblioqrafik informasiyanın yeni modellərinin hazırlanması, effektiv axtarış metodlarının işlənilməsi istiqamətində tədqiqatların zəruri edir. Bu istiqamət bilavasitə tətbiqi xarakter daşıyır və buna görə də elmi-tədqiqat müəssisələrilə yanaşı, biznes strukturları da bu tədqqatlarda aktiv iştrak edir. Məsələn, "Google" şirkətinin bu sahədə son illərdə əldə etdiyi uğurların onu telekommunikasiya şirkətləri arasında lider mövqeyə çıxartmışdır.

- *İnformasiyanın qiymətlədirilməsi istiqaməti*;

Bu sahədə tədqiqatların əsas məqsədi sənədləri informasiya tələbatçılarının tələbatlarına bilavasitə uyğunluqlarına və bununla əlaqədar başqa meyarlara görə qiymətləndirməkdən ibarətdir. Qeyd edək ki, bu istiqamət keçən əsrin 90-cı illərindən sonra dinamik imkişaf etməkdədir. İnformasiyanın qiymətləndirilməsi istiqamətində tədqiqatlar birinci səviyyəli informasiyanın kontent analizi əsasında alınmış nəticələrin statistik metodlarlara işlənilməsinə əsaslanır. Bu tədqiqatlar son dövrdə elmmetriyada geniş tətbiq olunmaqdadır. Onun sayəsində nəinki hər hansı bir elmi yeniliyin qiymətləndirilməsi, həmçinin elm sahələrini inkişaf dinamikasını müəyyən etmək və proqnozlaşdırmaq olar. İnformasiyanın qiymətləndirilməsi istiqamətində aparılan biblioqrafik tədqiqatlar informasiyanın qiymətləndirmə





indekslərinin tapımasına yönəlmişdir və riyazi və kibernetik aparat tələb edən tədqiqatlardır. Bu sahədə alınmış uğurlu nəticələr əsasında bu gün bir sıra nüfuzlu Reytinq Agentlikləri fəaliyyət göstərir. Buna misal olaraq Reyter Tomson Agentliyini göstərmək olar. Bu agentlik öz biblioqrafik bazası əsasında elm sahələrinin, elmi jurnalların, məqalələrin, patent sənədlərinin, konfrans materiallarının, müəlliflərin, təşkilalatların qiymətlilik dərəcəsini - impakt faktorunu müəyyən edir.

## ƏDƏBİYYAT

1. *Мотульский Р.С. Общее библиотековедение: учеб. Пособие для вузов / Р.С. Мотульский. - М.: Либерия, 2004.*
2. *Романенко В.Н. Сетевой информационный поиск: практическое пособие /В.Н. Романенко, Г.В. Никитина. - СПб.: Профессия, 2003.*
3. *Чачко А.С. Развивающаяся библиотека в информационном обществе: научно-методическое пособие /А.С. Чачко. - М.: Либерия, 2004.*
4. *Гладкова Н. Библиография в электронной среде /Гладкова Н. // Библиотека. - 2009. - № 3. - С. 19-20.*
5. *Гладкова Н.В. Компьютеризация библиографической деятельности / Н.В. Гладкова // Библиография. - 2009. - № 2. - С. 53-56.*
6. *Керзум А.П. Библиография - технология, наука и творчество / А.П. Керзум // Библиография. - 2009. - № 5. - С. 35-38.*
7. *Леонов В.П. Российская библиография на современном этапе /В.П. Леонов, Н.К. Леликова // Библиография. - 2009. - № 4. - С. 11-17.*
8. *Ратникова Е.И. Образовательная деятельность вузовских библиотек в условиях развития новых информационно-коммуникационных технологий / Е.И. Ратникова // Библиотечное дело - XXI век. - 2009. - №2. - С. 52-61.*
9. *Федоров В.А. Апология электронного документа: рецензия /В.А. Федоров //Мир библиографии. - 2005. - № 1. - С.75-78.*

## НОВЫЕ НАПРАВЛЕНИЯ В БИБЛИОГРАФИЧЕСКИХ ИССЛЕДОВАНИЯХ

КУРБАНОВ А.И.

### *РЕЗЮМЕ*

*В статье рассматривается роль библиографических исследований в документо-коммуникационном системе в информационном обществе. Определены новые направления исследований в этой области. Изложены требования к библиографическим исследованиям в связи появлением новых форм информации, новых методов обработки, хранения и обмена информации.*

***Ключевые слова:*** *информационное общество, документо-коммуникационная система, библиографические ресурсы.*

## NEW TRENDS OF BIBLIOGRAPHIC RESEARCH IN LIBRARY INFORMATION ACTIVITY

KURBANOV A.I.

### *SUMMARY*

*In this article was mentioned the role of bibliographic research in document-communication system in information society and new trends in research in this field was determined. Bibliographic research duties and demands were interpret occurring new trends of information emergence forms,in establishing of processing, storage and exchange methods and means*

***Key words:*** *bibliographic research, information society, document-communication system.*